# VIII SİNİFDƏ KİMYA DƏRSLƏRİNİN KƏND TƏSƏRRÜFATI İLƏ ƏLAQƏLƏNDİRİLMƏSİ

**M.N.Hüseynov, G.B.Ağabəyova**

*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

Mövzunun izahına kimyanın məişətdən tutmuş xalq təsərrüfatının müxtəlif sahələrində tətbiqinə dair konkret misallar göstərməklə başlanılmalıdır. Qeyd edilməlidir ki, müasir cəmiyyət həyatında kimyanın rolu çox böyükdür.

VIII sinifdə gübrələr haqqında sadə şəkildə (gübrələrin xassələri,əhəmiyyəti və sadə üsulla təyini) məlumat verilir. IX sinifdə isə həmin məlumat dərinləşdirilir. Bu mövzu qeyri-üzvi birləşmələrin başlıca sinifləri mövzusundan sonra keçilir. Buna görə də bu dərsin izahına belə bir qısa girişlə başlanmağı münasib bilirik.

Uşaqlar, siz kimyəvi birləşmələrini başlıca siniflərini öyrənərkən onların kimyəvi tərkibləri, xassələri və tətbiqi ilə hələ VIII sinifdə tanış olmuş və bundan əvvəlki dərslərdə o haqdakı biliyinizi daha da dərinləşdirmişsiniz. Bu gün isə həmin birləşmələrin mühüm bir sinifini təşkil edən və həyatda böyük praktik əhəmiyyəti olan bir qrup duzlarla tanış olacağıq.

Bundan sonra, müəllim şagirdlərə bir neçə duz nümunəsi (natrium-nitrat, kalium-xlorid, kalsium-nitrat və s.) göstərərək qeyd edir ki, bunların hamısı kənd təsərrüfatı üçün çox böyük əhəmiyyəti olan maddələrdir. Buna görə də onlara ümumi adla "mineral gübrələr" deyilir. Bu duzları müxtəlif bitkilər əkilmiş sahələrə verdikdə məhsuldarlıq qat-qat artır. Buna səbəb duzların tərkibində olan ayrı-ayrı elementlərdir.

Hesablamalar nəticəsində müəyyən edilmişdir ki, bütün yer üzündə əldə edilən məhsulda hər il torpaqdan 25 milyon tondan artıq azot və 30 milyon tondan artıq kalium (kalium-oksidi hesabı ilə) aparılır. Təkcə bunu demək kifayətdir ki, bir ton məhsul özü ilə torpaqdan 30-60 kq azot, 15-20 kq fosfor və 30-60 kq kalium aparır. Başqa bir misal: bir hektar kartof əkilmiş sahədən kartof öz yumruları və yer üstü hissəsi ilə orta hesabla 175 kq azot, 80 kq fosfor və 350 kq kalium aparır. Bu səbəbdən də hər hansı bir sahədə uzun müddət eyni bitki əkildikdə çox sərf olunan elementlərin torpaqdakı miqdarı xeyli azalır. Bu isə məhsulun azalması ilə nəticələnir.

Torpağı uzun müddət istismar etdikdə ondakı mineral maddələr tükənir, bitkinin məhsuldarlığı və məhsulun keyfiyyəti aşağı düşür. Ona görə də bitkilər üçün qida maddələri hesab edilən maddələrin miqdarını kompensasiya etmək lazımdır. Bu məqsədlə mineral gübrələrdən istifadə edilir.

Buna görə də, bitkilərin qida mənbəyi olan torpaqdan hər il yüksək məhsul almaq üçün onda çatışmayan elementlər müəyyən edilməli və gübrə verilməklə onların miqdarı artırılmalıdır. Respublikamızın kənd təsərrüfat işlərində çalışan qabaqcıl fermerlərin təcrübəsi göstərir ki, bitkiçilik məhsullarının artırılmasında gübrələrdən istifadə olunması ən əlverişli və etibarlı üsuldur. Bu halda həm məhsuldarlıq xeyli artır, həm də mineral gübrələrin istehsalına çəkilən xərclər qısa bir müddətdə ödənilir.

Şagirdlərin nəzərinə çatdırılmalıdır ki, bitkilərin əsas qida elementləri azot, fosfor və kaliumdur. Bu elementlər bitki hüceyrələrində maddələr mübadiləsini yaxşılaşdırır, bitkilərdə qiymətli maddələrin miqdarını artırır. Göstərilən maddələr çuğundurda, meyvələrdə şəkərin, kartofda nişastanın, taxılda zülalın və s. çoxalmasına səbəb olur. Buna görə də mineral gübrələr tərkibindəki qida maddəsindən asılı olaraq əsas etibarı ilə üç qrupa: azot, fosfor və kalium gübrələrinə bölünür. Mineral gübrələr nəinki bitkilərin normal inkişafına səbəb olur, eyni zaman onların məhsuldarlığının artmasında da böyük rol oynayır. Buna görə də kənd təsərrüfatı bitkiləri əkiləcək torpaqlara məhsuldarlığı müntəzəm surətdə artırmaq üçün qiymətli vasitə olan azot, fosfor və kalium gübrələri verilir.

Təcrübələr nəticəsində müəyyən edilmişdir ki, torpağa bir ton azot gübrəsi verildikdə 12-15 ton, bir ton fosfor gübrəsi (di fosfor-penta oksid hesabı ilə) verildikdə isə 7-8 ton əlavə buğda məhsulu götürmək olur. Müxtəlif meyvə ağaclarından bol məhsul götürülməsində, tərəvəz, kartof, pambıq və s. bitkilərin məhsuldarlığının artırılmasında da gübrələrin rolu böyükdür.

Azot gübrələri mövzusunu keçərkən müəllim qeyd edir ki, kənd təsərrüfatı bitkilərinin normal inkişafı, boy artması və yüksək məhsul verməsi üçün ən vacib qida maddələrindən biri azotdur, çünki ən mühüm qida elementi olan azot bütün canlıların, o cümlədən bitkilərin orqanizminin əsas tərkib hissəsini təşkil edən zülalın əmələ gəlməsi üçün vacibdir. Təkcə bunu demək kifayətdir ki, bitki zülallarının çəki ilə 1/6 (altıda bir) hissəsi azotdan ibarətdir. Zülalsız heç bir canlı orqanizm ola bilməz. Deməli, azotsuz həyat qeyri-mümkündür.

Doğrudan da azotsuz heç bir bitkinin inkişaf etməsi mümkün deyildir. Torpaqda azot çatışmadıqda bitkilərin yarpaqları solğunlaşır, tez saralır, onlar zəif qol-budaq atır, pis böyüyür və nəticədə qısa boylu qalırlar. Bütün bunların nəticəsində məhsulun miqdarı az olmaqla bərabər, keyfiyyəti aşağı düşür. Əksinə, torpaqda azot birləşmələri kifayət qədər olduqda, bitkilər normal surətdə boy atır, onların ayrı-ayrı hissələri yaxşı inkişaf edir, yarpaqları həm iri, həm də yaşıl rəngli olur və əkin sahələrindən yüksək məhsul götürülür, həm də məhsulun keyfiyyəti xeyli yaxşılaşır.

Qeyd etmək olar ki, peyinin tərkibində azot elementi var. Onda azotun təsirinin başlanğıc halda saxlanması üçün onu bir yerə toplayıb, üstü torf təbəqəsi

ilə örtülür. Sonra dərhal torpağa qarışdırılmalıdır. Bol çovdar məhsulu almaq üçün torpağın hər bir hektarına 45-50 t peyin verilməsi tələb olunur.

Mineral gübrələrdən düzgün istifadə olunduqda kənd təsərrüfatı bitkilərinin yüksək məhsuldarlığına nail olmaq mümkündür. Lakin nəzərə almaq lazımdır ki, mineral gübrələrin, məsələn, nitratların (natrium-nitrat, kalium-nitrat, ammonium-nitrat) artıq miqdarının verilməsi bitki orqanlarında onların toplanmasına gətirib çıxara bilər. Belə bitkilərdən alınan məhsullar qida üçün yararsız olur.

Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün təkcə mineral gübrələrin istehsal artımı və onların keyfiyyətinin yaxşılaşdırılması kifayət deyildir. Buna görə də, bütün kənd təsərrüfatı istehsalının kimyalaşdırılması zəruridir. Bunun üçün mineral gübrələrdən, bitkilərin mühafizəsində tətbiq olunan kimyəvi vasitələrdən, konservatlardan, yemlərə edilən əlavələrdən və s. düzgün istifadə olunması lazım gəlir.

Şagirdlərə bu izahatdan sonra kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında mühüm rol oynayan azot gübrələrindən ammonium-nitrat $NH_4NO_3$, ammonium-sulfat $(NH_4)_2SO_4$, natrium-nitrat $NaNO_3$, kalium-nitrat $KNO_3$ (bu həm kalium gübrəsi hesab olunur) və kalsium-nitratın $Ca(NO_3)_2$ xassələri və alınması haqqında şagirdlərə məlumat verilməlidir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Əliyev. Kimya tədrisinin kənd təsərrüfatı ilə əlaqələndirilməsi. "Maarif" Nəşriyyatı, Bakı-1966, səh.24
2. R.Əliyev, Ə.Əzizov. Kimyanın tədrisi metodikası. I hissə, Bakı Dövlət Universiteti Nəşriyyatı, Bakı-2005, səh.340
3. R.Əliyev, Ə.Əzizov. Kimya təliminin prinsipləri, üsulları və priyomları. Bakı-2002, səh.214
4. M.N.Hüseynov, G.N.İsmayılova, A.Q.Sadeddinli. Kimyanın əsas anlayışlarının tədrisi. Kimya məktəbdə. Elmi-nəzəri və metodik məcmuə 2016, səh.10

*М.Н. Гусейнов, Г.Б. Агабекова*

**Взаимосвязь уроков по химии для 8-го класса с сельским хозяйством**

**РЕЗЮМЕ**

Представлена общая информация о значении удобрений, являющихся одним из мер химизации сельского хозяйства, а также необходимости их широкого применения. Роль трёх основных питательных элементов в жизни растений. Вынос питательных веществ с урожаем сельскохозяйственных культур. Умелое использование минеральных удобрений для достижения высокой продуктивности сельскохозяйственных растений.

*M.N. Huseynov, G.B. Agabayova*

**Linking chemisty lessons with agriculture in VIII form**

**SUMMARY**

General information is given about importance of fertilizer which is one of chemicalization measures of agriculture and necessity of their large usage. The role of the three main nutrient elements in plant life. The removal of nurtients with crop yield. Skillful use of mineral fertilizers to achieve high productivity of agricultural plants.

**Açar sözlər:** mineral gübrələr: azot, fosfor və kalium gübrələri

**Ключевые слова:** минеральные удобрения: азотные, фосфорные и калийные удобрения

**Key words:** mineral fertilizers: nitrogen, phosphorus and potassium fertilizers.